**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT RƏSSAMLIQ AKADEMİYASI**

*Əlyazma hüququnda*

**NƏRMİN AZAD qızı EMİNBƏYLİ**

# AZƏRBAYCAN HEYKƏLTƏRAŞLIĞINDA PORTRET JANRININ İNKİŞAF MƏRHƏLƏLƏRİ

**İxtisas: 6215.01 – "Təsviri sənət"**

Sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2018**

Dissertasiya Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının "İncəsənət tarixi" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** ***Fuad Məmməd-Emin oğlu Salayev***
**Xalq rəssamı, professor**

**Rəsmi opponentlər:** ***Çingiz Əbdülməcid oğlu Fərzəliyev***
**Əməkdar incəsənət xadimi, professor**

***Günel Tofiq qızı Seyidəhmədli***
**Sənətşünaslıq üzrə fəlsəfə dloktoru**

**Aparıcı müəssisə:** ***Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti***

Müdafiə **"_29_" noyabr 2018-ci il saat 11:00-da** Azərbaycan Dövlət Rəssamlıq Akademiyası nəzdində təşkil olunmuş FD.02.191 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** AZ1029, Bakı, H.Əliyev prospekti 26, Azərbaycan Dövlət Rəssamlıq Akademiyası.

Dissertasiya ilə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının kitabxanasında tanış olmaq olar.

Avtoreferat "_29_" oktyabr 2018-ci ildə göndərilmişdir.

**FD.02.191 Dissertasiya**
**Şurasının elmi katibi,**
**sənətşünaslıq üzrə fəlsəfə**
**doktoru, dosent** **X.Z. Əsgərova**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Tədqiqatın aktuallığı.** Əsrlər boyu formalaşan Azərbaycan heykəltəraşlıq sənəti mürəkkəb yaradıcılıq axtarışları prosesində bədii yetkinlik mərhələsinə çatmış və respublikanın bədii həyatının ümumi mənzərəsini əhatəli, əlvan və çoxcəhətli edən dəyərli əsərlərlə zənginləşdirib. Mövzu və janr müxtəlifliyi, bədii təsvir vasitələrinin rəngarəngliyi heykəltəraşlıq sənətimizi səciyyələndirən mühüm keyfiyyətlərdəndir. Böyük ictimai-tərbiyəvi məzmuna, emosional təsir qüvvəsinə, ifadə gözəlliyinə, milli kökə malik, müasir ruhu ilə aşılanan əsərlər yaratmaq Azərbaycan heykəltəraşlarını daim düşündürməkdədir. Təsviri sənətin bütün sahələrində olduğu kimi heykəltəraşlıqda da portret janrı aparıcı sahələrdən birini təşkil edir. Müəyyən bir şəxsin bənzəyişini əldə etmək portretin başlıca və səciyyəvi vəzifəsidir. Sənətkar yaratdığı portret əsərində təsvir etdiyi adamın yalnız zahiri görünüşünü, hərəkətini və mimikasını göstərməklə kifayətlənmir, eyni zamanda portretini yaratdığı şəxsin daxili aləmini, xarakterini inandırıcı şəkildə göstərməyə çalışır. Real biçimli portret əsəri ilk növbədə dərin psixoloji ifadə qüvvəsinə və ümumiləşdirməyə malik olması ilə fərqlənir. Portret sənəti, bununla bərabər həm də dərin ictimai xüsusiyyət daşıyır. Belə ki, insan cəmiyyətdə yaşayır və qırılmaz tellərlə ona bağlıdır. O, yaşadığı ictimai mühitin xüsusiyyətlərini, əxlaq prinsiplərini, adət və ənənələrini, vərdişlərini, insanların daşıdıqları arzu və düşüncələrini özündə əks etdirir. Heykəltəraşlıqda portret janrı həmişə müasir nəslin vacib, duyulan və anlaşıqlıqlı bir sahəsi olmuş, gələcək nəsil üçün isə keçmiş dövr barədə əyani təsəvvür yaradacaq inandırıcı bədii sənəd rolunu oynamışdı. Bu əsərlərin uğurlu nümunələrində tarixi şəxsiyyətlərin obrazları canlandırılmaqla yanaşı, konkret dövrün həmin insanlar haqqında olan təsəvvürləri də öz əksini tapmışdır. Başqa sözlə desək, çox vaxt zamanın sosial-siyasi problemləri bu obrazların təsvirində canlandırılırdı. Heykəltəraşlığın təsvir obyekti əsasən insan olduğuna görə incəsənətin bu növündə portret janrına daha çox müraciət edilir. Portret heykəltəraşlığının özünəməxsus qayda və qanunları vardır. Bəzən konkret şəxslərin portretlərini yaradarkən, geniş ümumiləşdirmə, müəyyən nisbətlərin tapılması, proporsional cizgilər, lakonik ifadə vasitələri ilə sənətkar bənzərsiz insan obrazlarının daxili aləmini, onun mühitini, insanın cəmiyyətdə tutduğu yüksək mövqeyi göstərə bilir.

Bu mənada heykəltəraşlığın portret janrında yaradılmış əsərlərin tədqiqinin mühüm önəm kəsb etməsi də birmənalıdır. Amma çox təəssüf ki, portret janrlı əsərlər Azərbaycan heykəltəraşlığında önəmli olmasına bax-

mayaraq, heç vaxt bu mövzu ayrıca elmi tədqiqata cəlb olunmamışdır. Elə bu da təqdim olunan dissertasiyanın yazılma aktuallığını şərtləndirmişdir.

**Mövzunun işlənmə səviyyəsi.** Mövzunun aktuallığı həm də onun işlənilmə səviyyəsi ilə müəyyən edilir. Azərbaycan heykəltəraşlığının öyrənilməsi haqqında bir sıra tədqiqatlar aparılıb. Ancaq ayrılıqda heykəltəraşlığın portret sahəsi xüsusiyyətləri üzə çıxarılmamışdır. Bu nöqteyi-nəzərdən Azərbaycan heykəltəraşlıq məktəbi haqqında böyük tədqiqat işi yerinə yetirmiş sənətşünas alimlərimizin yazdıqları kitablar və məqalələr hər tərəfli araşdırılmışdır. Hələ sovet dönəmindən Azərbaycan təsviri sənəti tarixinin tədqiqi və təbliği istiqamətində görülən işlər sırasında heykəltəraşlıq sahəsində fəaliyyət göstərilən tişə ustalarının ərsəyə gətirdikləri nümunələrə sənətşünas münasibətləri olmuşdur. Bu mənada N.Miklaşevskaya, M.Nəcəfov, C.Novruzova, F.Roqinskaya, M.Tərlanov, V.Trofimov kimi tanınmış sənətşünaslarla yanaşı, G.Qacar, Z.Əliyev, T.İbrahimov, V.Bağırov, S.Sadıqov, Ş.Məlikova, F.Qasımov, H.Səfərova və başqalarının yazdıqları monoqrafiya, dissertasiya, kitab, qəzet-jurnal məqalələrinin adını çəkmək olar. Bununla yanaşı demək lazımdır ki, Moskvada 1970-ci ildə çap olunmuş «Искусство Советского Азербайджана: живопись, графика, скульптура» kitabında[1], sənətşünaslıq elmlər doktoru, professor Cəmilə Novruzova tərəfindən 1979-cu ildə çıxmış «Скульптура Советского Азербайджана» kitabında[2] heykəltəraşlarımızın sovet dövründə yaratdıqları portret janrlı əsərləri haqqında məlumat verilmşdır. Bu mənada Cəmilə Novruzovanın "Heykəltəraşlığımızın bu günü"[3], "Sovet Azərbaycanının heykəltəraşlığı"[4] və s. məqalə və kitablarda Azərbaycan heykəltəraşlarının portret janrlı əsərləri haqqında məlumat verilmişdır.

Bu istiqamətdə görülən işlərin sırasında Vüsal Bağırovun "Azərbaycanda kiçik formalı heykəltəraşlığın inkişafı (XX əsr)"[5] kitabının adını çəkmək olar. Monoqrafiya 2004-cü ildə nəşr olunduğundan burada yalnız ölkə müstəqilliyinin ilk illərində yaradılan azsaylı işlər tədqiqat obyektinə çevrilmişlər.

Yaradıcılığı müstəqillik illərində də davam edən iki tişə ustası barəsində yazılan dissertasiyaları dəzgah heykəltəraşlığımızın elmi şəkildə öyrənilmə-

---

1 Искусство Советского Азербайджана: живопись, графика, скульптура. М., 1970. 198 с.

2 Новрузова Д.Г. Скульптура Советского Азербайджана. Баку, 1979. 160 с.

3 Novruzova C. Heykəltəraşlığımızın bu günü // "Qobustan", 1977, №2, s. 5-11.

4 Novruzova C. Sovet Azərbaycanının heykəltəraşlığı – Bakı, 1973.

5 Bağırov V. Azərbaycanda kiçik formalı heykəltəraçlığın inkişafı (XX əsr). Bakı, 2004.

si istiqamətində mühüm addım saymaq olar. Bunlardan biri Samir Sadıqovun 2013-cü ildə Xalq rəssamı Tokay Məmmədovun həyat və yaradıcılığından bəhs edən elmi tədqiqat işidir[6]. Digəri isə Fərman Qasımovun 2014-cü ildə yazdığı "Xalq rəssamı Natiq Əliyevin yaradıcılığı müasir Azərbaycan heykəltəraşlığı kontekstində" adlı dissertasiya işidir[7]. Hər iki dissertasiyada T.Məmmədov və N.Əliyevin heykəltəraşların portret sahəsində fəaliyyəti ayrıca bölmədə təhlil olunmuşdur. Qalib Qasımovun xalq rəssamı Fazil Nəcəfova həsr etdiyi dissertasiyada da heykəltəraşın portret əsərləri haqqında məlumat verilmişdir[8]. Hökümə Ağasoy-Səfərovanın 2014-cü ildə yazdığı "Müstəqillik dövründə Azərbaycan dəzgah heykəltəraşlığı" dissertasiyasında[9] da müstəqilik illərində heykəltəraşlarımızın yaratdıqları portret əsərləri bədii cəhətdən təsvir və təhlil olunmuşdur.

Görkəmli heykəltəraş Ömər Eldarov haqqında nəşr olunan monoqrafiya (2005) belə nəşrlərdəndir[10]. Sənətşünas Gülrəna Qacarın qələmə aldığı monoqrafiyada heykəltəraşın zəngin yaradıcılığından bəhs olunub və orada heykəltəraşın kitabın nəşrinə qədərki dövrdə artıq yaratdığı bir-neçə portret janrında heykəltəraşlığı nümunəsi haqqında yığcam məlumat verilib. 2013-cü ildə Bakıda "Sərvət" çağrışı altında Azərbaycan rəssam və heykəltəraşlarının yaradıcılığından bəhs edən albomlar çap olunmuşdur. Onların arasında heykəltəraşlara həsr olunmuş nəşrlər də mövcuddur. Bu mənada Zivər Məmmədova, Həyat Abdullayeva, Elmira Hüseynova, Fuad Əbdürrəhmanov, Cəlal Qaryağdı, Mirəli Mirqasımov, Tokay Məmmədov, Ömər Eldarov və Fazil Nəcəfova həsr olunmuş kitabların adını çəkmək olar[11]. Rafiq

---

[6] Sadıqov S. Tokay Məmmədovun yaradıcılığının bədii xüsusiyyətlərinin Azərbaycan heykəltəraşlığında əhəmiyyəti. Sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dər. al. üçün təq. ed. dis-nın avtoreferatı – Bakı. 2013.

[7] Qasımov F. Xalq rəssamı Natiq Əliyevin yaradıcılığı müasir Azərbaycan heykəltəraşlığı kontekstində. Sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dər. al. üçün təq. ed. diss. Bakı, 2014.

[8] Qasımov Q. Heykəltəraş Fazil Nəcəfovun yaradıcılığında ənənə və müasirlik. Sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dər. al. üçün təq. ed. dis-nın avtoreferatı – Bakı, 2015.

[9] Ağasoy-Səfərova H. Müstəqillik dövründə Azərbaycan dəzgah heykəltəraşlığı. Sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dər. al. üçün təq. ed. diss. Bakı, 2014.

[10] Mirzə G. Ömər Eldarov. Bakı, 2005. S. 285.

[11] Abdullayeva Ə. Zivər Məmmədova, Həyat Abdullayeva, Elmira Hüseynova. "Şərq-Qərb" Nəşriyyat Evi, 2013, İbrahimov T. Fuad Əbdürrəhmanov. "Şərq-Qərb" Nəşriyyat Evi, 2013, İbrahimov T. Cəlal Qaryağdı. "Şərq-Qərb" Nəşriyyat Evi, 2013, Eldarova L. Mirəli Mirqasımov. "Şərq-Qərb" Nəşriyyat Evi, 2013,

Quliyevin 2013-cü ildə çap olunmuş "Azərbaycan təsviri sənətində tarix və şəxsiyyət" kitabında[12] da heykəltəraşlığın tarixi janrında yaradılmış əsərlərdən ətraflı söz açılıb. Burada həm sovet həmdə müstəqillik dövründə yaradılmış heykəltəraşlıqda portret janrlı əsərlər haqqında da məlumat almaq mümkündür. Bununla yanaşı demək lazımdır ki, Bakıda 2011-ci ildə Ziyadxan Əliyev və Aslan Xəlilovun müəllifliyi ilə işıq üzü görmüş üç hissəli "Azərbaycan incəsənəti"[13] kitabında da heykəltəraşlardan bir-neçəsi (Ömər Eldarov, Tokay Məmmədov, Nicat Məmmədov) haqqında məlumat verilmiş heykəltəraşların müxtəlif nəsillərinin təmsil edən yaradıcıların portret əsərlərinin reproduksiyası çap olunmuşdur. Lakin yuxarıda göstərildiyi kimi, bu kitablar ümumi xarakter daşımış və Azərbaycan heykəltəraşlarının yaratdığı portret janrlı əsərləri tam əhatə edə bilməmişdir. Bütün bunlara baxmayaraq demək lazımdır ki, heykəltəraşlarımızın portret janrlı yaratdıqları əsərlər dünya səviyyəsinə cavab verir.

**Tədqiqatın məqsədi və vəzifələri**. Tədqiqat işinin başlıca məqsədi Azərbaycan heykəltəraşlarının portret janrında yaratdığı əsərlərdə obrazlılığın əldə olunması yönündə apardıqları yaradıcılıq axtarışlarını ifadə olunmuş nəticələrini elmi şəkildə dəyərləndirməkdir. Bu məqsəddən çıxış etsək, onda tədqiqatın başlıca vəzifələrini aşağıdakı kimi müəyyənləşdirmək mümkündür:

- ilk heykəltəraşların portret əsərlərini öyrənməklə onların ən parlaq nümunələrini təhlil etmək;
- Sovet dövründə portret heykəltəraşlığında ifadə vasitələrinin obrazlılığın əldə olunmasına yönəldilməsinin əyaniləşdirilməsi;
- portret janrında yaradılan əsərlərdə səciyyəvi cizgilərin obraza çevrilməsi axtarışlarının aydınlaşdırılması;
- tarixi və ədəbi obrazların portret janrında ümumi və səciyyəvi bədii-estetik tutumunun müəyyənləşdirilməsi;
- zəhmətkeş insanların portretlərində bədii ifadənin əksinin obrazlaşdırılması axtarışlarının üzə çıxarılması;
- müstəqillik dövrü heykəltəraşlığında portret janr axtarışları prosesinin hansı yaradıcı yöndə aparıldığının müəyyənləşdirilməsi;
- müstəqillik dövrü portret janrlı heykəltəraşlıq nümunələrində forma-

---

Şeyxov Y. Tokay Məmmədov. "Şərq-Qərb" Nəşriyyat Evi, 2013, Mirzə G. Ömər Eldarov. "Şərq-Qərb" Nəşriyyat Evi, 2013, Vahabova D. Fazil Nəcəfov. "Şərq-Qərb" Nəşriyyat Evi, 2013.

[12] Quliyev R. Azərbaycan təsviri sənətində tarix və şəxsiyyət. Bakı, 2013.

[13] Əliyev Z., Xəlilov A. Azərbaycan incəsənəti. Bakı, 2011.

biçim və bədii ifadə axtarışlarının dəyərləndirilməsi;

- Azərbaycan heykəltəraşlığının portret janrlı əsərlərin müxtəlif inkişaf mərhələlərindəki mənzərəsinin müqayisəli təhlilinin elmi əsaslandırılması;

**Tədqiqatın metodoloji əsasları.** Tədqiqat işinin nəzəri-metodoloji əsasını Azərbaycan heykəltəraşlığının portret janrlı əsərlərin təşəkkülünün və bədii-estetik tutumunun göstəricisi olan obrazlılığın əldə olunmasına tişə ustalarının müxtəlif nəsillərinin verdiyi töhfələrin elmi təhlili təşkil edir.

Dissertasiya özündə həm də milli heykəltəraşlığın uzaq-yaxın keçmişdə yaradılan portret janrlı nümunələrinin obrazlılığın əldə olunması prosesində müxtəlif forma-biçimə tapınma nəticələrinin elmi şərhini əhatə edir.

Mövzunun tədqiqi prosesində Azərbaycan heykəltəraşlarının portret janrlı əsərlərdə obrazlılığın əldə olunması sahəsində əldə etdikləri uğurlu nəticələr müxtəlif mövzu timsalında izlənilmiş, bədii-estetik və tarixi dəyərlər şərh olunmuşdu. Müstəqillik dövründə təsviri sənətin ideoloji asılılıqdan azad olmasının heykəltəraşların portret janrında yaratdığı əsərlərin obrazlı görkəm almasının onların forma-biçimində ifadəsi əvvəlki dövrlə müqayisədə təhlil edilmiş, elmi dəyəri verilmişdi.

Tədqiqat işində nəzərdən keçirilən problemin təhlilində milli və bəşəri dəyərlərdən, müasir sənətşünaslığın elmi-nəzəri müddəa və qənaətlərindən faydalanılmışdır. Problemin tədqiqi portret janrlı əsərlərin elmi-metodiki, o cümlədən tarixi-bədii dəyərlərin müqayisəli-təhlil metodu ilə həyata keçirilmişdi.

**Tədqiqatın obyekti və predmeti**. Tədqiqatın obyektini Azərbaycan heykəltəraşlarının müxtəlif nəsillərinin XX əsr və müstəqillik illərində yaratdıqları portret janrında əsərlər təşkil edir.

Tədqiqatın predmetini isə portret janrı sahəsində fəaliyyət göstərən heykəltəraşların yaratdığı portret əsərlərinin forma, məzmun, üslub, dəst-xətt göstəriciləri təşkil edir. Tədqiqatda heykəltəraşların yaradıcılıqları, onların portret janrlarda fəaliyyəti kontekstində izlənilməklə yanaşı, axtarışlarla zəngin bu yaradıcılıq prosesinin özündə müxtəlif təəssürat daşıyıcılığını, fəlsəfi məzmun və özünəməxsus ifadə sənətkarlığını hifz etməsi başlıca predmet kimi götürülmüşdür.

**Tədqiqatın sərhədləri.** Tədqiqatın xronoloji sərhədləri XX əsr əvvəllərində Azərbaycanın Xalq Cümhuriyyəti və sovet dövrünün yarandığı ilk illərindən başlamış müstəqillik dövründəki inkişaf mənzərəsində baş verən bədii proseslərini əks etdirən dövrünü əhatə edir.

Tədqiqatın coğrafi sərhədi özündə heykəltəraşlarımızın Azərbaycanla yanaşı, dünyanın bir çox ölkələrində ucaldılmış portret büst-abidələri əhatə edir.

**Tədqiqatın elmi yeniliyi**. Tədqiqat işinin elmi yeniliyi bilavasitə mövzunun özünün qoyuluşu ilə müəyyən olunur və aşağıdakı müddəalarda öz

əksini tapır:

- ilk dəfə olaraq Azərbaycan sənətşünaslığında heykəltəraşlıqda portret janrı məsələsi müstəqil monoqrafik tədqiqat obyekti kimi çıxış edir;
- qoyulmuş problemin sovet dönəmində portret janrlı əsərlərin həllinin obyektiv-subyektiv səbəbləri araşdırılır;
- portret janrında yaratdıqları plastika nümunələrində həll etməyə çalışan tanınmış sənətkarlarla yanaşı, gənc heykəltəraşların yaradıcılığına da yer ayrılmışdır;
- tədqiqatın sərhədlərinə daxil olan portret janrlı əsərlər Azərbaycan heykəltəraşlığının inkişafına verdiyi töhfələr elmi şəkildə araşdırılmışdı;
- ilk dəfə Azərbaycan heykəltəraşlığında portret janrı bədii və psixoloji tutum qaynağı kimi elmi əsaslarla öyrənilmişdir;
- ilk dəfə heykəltəraşlıqda sadə, tarixi və ədəbii obrazların portretləri həm sovet dövründə həmdə müstəqilik illərində yaradılmış portret əsərləri bir yerdə forma-biçim və bədii ifadə axtarışlarının mövzu ilə əlaqəsi tədqiqata cəlb olunmuşdur;

**Tədqiqatın nəzəri və təcrübi əhəmiyyəti.** Tədqiqatın məna-məzmun yeniliyi onun nəzəri və təcrübi əhəmiyyətini şərtləndirmişdir. Heykəltəraşların müxtəlif dövrlərdə yaratdığı portret əsərlərində obrazlılığın əldə olunması kimi önəmli məsələnin obyektiv tədqiqi, heç şübhəsiz, bu sahədə fəaliyyət göstərənlərə bədii proseslərdə baş verənləri dəyərləndirməyə imkan verməklə, onların gələcək yaradıcılıqları üçün istiqamətverici nəzəri qaynaq ola bilər. Tədqiqat həm də zaman-zaman yaradılan və şəhərlərin küçə və meydanlarında yer alan büst-portretlərdə dəyərləndirilməsində ənənə şəklini almış süni təriflərdən uzaqlaşmağın zəruriliyini bu məsələ ilə məşğul olan sənətşünas və jurnalistlər üçün də bir xatırlatma-elmi tövsiyədir.

Tədqiqat rəssamlıq və memarlıq təmayüllü ali və orta ixtisas müəssisələrində rəssam, memar və sənətşünas tələbələrə "Heykəltəraşlıq tarixi", "Azərbaycan incəsənəti tarixi" və "İncəsənətdə sintez problemləri" kursları çərçivəsində tədris oluna bilər.

**Dissertasiyanın aprobasiyası**. Dissertasiya Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının "İncəsənət tarixi" kafedrasında yerinə yetirilmiş və kafedranın iclasında müzakirə olunmuşdu. Araşdırmanın əsas məzmunu, elmi müddəaları və nəticələri 7 elmi məqalədə öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, iki fəsil, altı yarım fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. Tədqiqatın məzmunu kompüter yığımının 121 səhifəsində öz əksini tapmış, illüstrasiyalar isə albom şəklində dissertasiyaya əlavə kimi təqdim olunmuşdu.

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

Girişdə mövzunun aktuallığı, məqsəd və vəzifələri, onun işlənmə səviyyəsi, eləcə də işin elmi yeniliyi, praktiki əhəmiyyəti, aprobasiyası, strukturu və həcmi haqda məlumat verilir.

**Fəsil I – "Sovet dövrü Azərbaycan heykəltəraşlığında portret janrında yaradılmış əsərlərdə ifadə axtarışları"** adlanır və Azərbaycan heykəltərşlığında portret janrının təşəkkülü, ədəbi, tarixi və zəhmətkeşlərin yaradılmış portret obrazlarının bədii cəhətləri haqqında məlumat verilmişdir. Bu fəsil üç yarımfəsildən ibarətdir.

**Birinci yarımfəsil "Azərbaycan heykəltəraşlığında portret janrının təşəkkülü"** adlanır və Azərbaycanın Xalq Cümhuriyyəti və sovet dövrünün yarandığı ilk illərində yerinə yetirilmiş portret əsərləri hər tərəfli şəkildə təsvir və təhlil olunmuşdur.

Azərbaycan Xalq Cümhuriyyətinin 1920-ci ilin yanvar ayında Rusiyanın və Avropanın Ali məktəblərində oxumaq üçün göndərdiyi 99 azərbaycanlı gəncin içərisində Zeynal Əlizadə də var idi. O, İtalyanın Peruci şəhərində di Bella Arti Akademiyasının heykəltəraşlıq bölməsində Ali təhsil almış yeganə azərbaycanlıdır. O, burada istedadlı italiyan heykəltəraşlarının rəhbərliyi altında heykəltəraşlıq sənətinin çətin sirlərini öyrənmişdir. Sözsüz bütün bunlar onun gələcək yaradıcılığına təsir eləməyə bilməzdi. Bunu Z.Əlizadənin 1921-ci ilin axırlarında yaratdığı Sankt-Peterburq imperator teatrının keçmiş məşhur müğənnisi və bariton səsə malik olan Zalevskinin portretidir. Həmin əsərdə heykəltəraşın artıq öz dəsti-xətti hiss olunur. Portretdə lirizm güclüdür və bütün diqqət qrafik cizgilərin plastikasına, ifadəliyinə yönəldilib. Heykəltəraşın estetik qayəsi də elə bu ümumiləşmiş plastik xəttlərin üstündə qurulubdur. Bu əsərdə düzgün portret dəqiqliyi də diqqəti cəlb edir və yüksək ümumiləştirmə keyfiyyətinə malikdir. Azərbaycanda sovet hakimiyyəti yarandığı ilk gündən başlayaraq ideoloji sahəyə xüsusi diqqət yetirmişdir. 1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti devrildikdən və bolşeviklər hakimiyyəti zəbt etdikdən sonra Azərbaycanda da "Monumental təbliğat" planı sovet incəsənətinin, o cümlədən heykəltəraşlığının təməl prinsipinə çevrildi. Cəmiyyətdə marksizm-leninizm nəzəriyyəsini geniş təbliğ etmək, insanlara sovet vətənpərvərliyi, proletar beynəlmiləlçiliyi, əməyə kommunist münasibəti, ictimai fəallıq aşılamaq və s. kimi məsələlər heykəltəraşlığın inkişaf məramnaməsinə çevrildi. Siyasi və ideoloji məqsəd daşıması ilə bərabər bu təbliğat planı heykəltəraşlığın sürətli inkişafına təkan verdi. Azərbaycan heykəltəraşlığının zəngin tarixi ənənələrə malik ol-

masına baxmayaraq, XX əsrin əvvəllərində respublikamızda heykəltəraşlığın səviyyəsi dünya, o cümlədən Rusiya hüdudları ilə müqayisədə xeyli aşağı idi. Ölkəmizdə peşəkar heykəltəraş kadrlarının hazırlanmasına ehtiyac vardı. Bu mənada Azərbaycanda peşəkar heykəltəraşlığının təşəkkülü və inkişafında ölkəmizə dəvət edilmiş sənətkarların zəhməti danılmazdır. Təsviri sənətin bu sahəsində böyük təcrübəyə malik olan heykəltəraşlardan Yakov İosifoviç Keylixis, Elizavetta Rodionovna Tripolskaya, Stepan Dmitrieviç Erzya sovet hakimiyyətinin ilk illərində respublikamızda çalışaraq milli kadrlar hazırlığına səy göstərmişlər. Onlar xalq kütlələrinin düşüncəsinə yaxın mövzularda əsərlər yaratmış və sosializm qurucusu kimi yeni insan obrazı təbliğinə başlamışlar. 1918-ci ildə Xalq Komissarlar Soveti inqilabi xadimlər K. Marksa və F. Engelsə birinci növbədə heykəltəraşlıq abidələri qoyulması haqqında göstəriş vermişdir. Artıq 1920-ci ildə Bakının mərkəzində Y.İ.Keylixis tərəfindən Karl Marksın büst-heykəli düzəldilərək ucaldılmışdır. Sovet hakimiyyətinin ilk dövrlərində Bakıda qurulmuş büst-heykəllər dövrümüzə qədər gəlib çatmamışdır və onlar haqqında hər-hansı fikir söyləmək çətindir. Yaradılmış ilk monumental büst-heykəllər şübhəsizi ki, monumental təbliğatın tələblərinə cavab verməyiblər. Karl Marksın heykəlinin ucaldıldıqdan az müddət sonra ictimaiyyətin tələbi ilə yığışdırılması heykəlin qənaətbəxş səviyyədə olmamağından xəbər verir. Yəqin ki, elə bu səbəbdən də 1920-1921-ci illərdə Bakıda ucaldılmış büst-heykəllər sonralar yığışdırılmışdır[14].

1926-cı ildə Bakıya gələn heykəltəraşlardan biri də Pyotr Vladimiroviç Sabsay olmuşdur. Bakıda o, milli plastik sənətin inkişafına və bədii kadrların hazırlanması işinə böyük fayda vermişdir. Onun təşəbbüsü ilə rəssamlıq məktəbində heykəltəraşlıq kadrlarının yetişdirilməsinə diqqət artır. P. Sabsay 1930-cu illərdə yaratdığı əsərlər içərisində portret janrına daha çox üstünük verir. Bu dövürdə heykəltəraşın yaratdığı əsərlər içərsində satirik şairimiz Mirzə Ələkbər Sabirin (1933, Şamaxı şəhəri), leytenant P.L.Şmidtin abidə-büstləri, M.F.Axundovun (1934) büstü xüsusilə seçilmişdilər. Böyük Vətən müharibəsi illərində respublikamızın bütün rəssamları kimi P.Sabsay da öz yaradıcılığını xalqımızın qələbəsi işinə həsr etdi. Müharibə zamanı o, onlarla heykəl-portret yaratmış və Sovet İttifaqı qəhrəmanlarının, cəbhədə və arxada fədakarlıq göstərən sovet adamlarının surətləri üzərində işləmişdir. Sovet İttifaqı Qəhrəmanları X.Mustafayev, M.Quliyevin, P.Klimovun və başqalarının portretləri müharibə illərinin məhsuludur.

[14] Новрузова Д.Г. Скульптура Советского Азербайджана – Баку, 1979, 23 с.

E.R.Tripolskayanın modelə yumşaq münasibət, onun fərdi özünəməxsuzluğu tankçı R.Yelçiyev və Sovet İttifaqı Qəhrəmanı M.Abbasova, Balerina Pavlovanın, Çilğın qız, Aktyor Yurevin, Doktor A.P.Passekaya aid portretlərinə məxsusdur.

Sənətşünaslıq üzrə fəlsəfə doktoru Samir Sadıqov qeyd edir ki, "E.R. Tripolskaya təsvir etdiyi surətin etnoqrafik xüsusiyyətlərinə, əsərin ideya və məzmununa ciddi yanaşmaqla bitkin sənət əsərləri meydana gətirmişdir"[15].

Azərbaycanın ilk heykəltəraş qadını Zivər Məmmədova məşhur pəhləvan Sali-Süleymanın, Xalq artisti H.Sarabskinin, Azərbaycan şairəsi Məhsəti Gəncəvinin, müharibə qəhrəmanları Hüseynbala Əliyevin, İdris Süleymanovun, Gəray Əsədovun, neftçi Baba Pirməmmədin, rəssam Ə.Əzimzadənin, Xalq şairi Məmməd Rahimin və b. portretlərini yaratmışdır. Heykəltəraşlar arasında Fuad Əbdürrəhmanovun, Cəlal Qaryağdının, Məmməd Yusifovun və Hüseyn Əhmədovun 30-cu illərin yaradıcılığı diqqət çəkir. F.Əbdürrəhmanovun M.F.Axundzadə (1932), Üz. Hacıbəyli (1934) və A.Zeynallıya həsr etdiyi portretləri (1934), C.Qaryağdının A.S.Puşkin, Ş.Rustaveli və Nizami ilə bağlı barelyeflərini (1937), M.Yusifovun S.Orconikidze və İ.Fioletovu əks etdirən portretləri (1939), eləcə də H.Əhmədovun şair Firdovsi (1934) əsərini o dövrdə portret janrında obrazlılığı əldə etməyə səylərin başlanğıcı saymaq olar. Bu plastika nümunələri daha çox qəhrəmanların portretlərinin real və inandırıcı təqdimatı ilə seçilirdilər.

**"Portret janrında tarixi və ədəbii obrazlar"** adlanan **ikinci yarımfəsil** sovet dövründə yaradılmış ədəbi və tarixi şəxsiyyətlərin portret obrazları haqqında məlumat verilmişdir.

Azərbaycan heykəltəraşlıq məktəbində ədəbi simaların obrazları ən aparıcı yerlərdən birini təşkil edir. Heykəltəraşlarımız şairlərin, yazıçıların obrazlarını daima canlandırmışlar və onların portretlərini yaratmışlar. Bu heykəltəraşlardan Fuad Əbdürrəhmanov, Cəlal Qaryağdı, Pyotr Sabsay, Nicat Məmmədov, Mirəli Mirqasımov, Tokay Məmmədov, Ömər Eldarov, Münəvvər Rzayeva, Elmira Hüseynova, Kamal Ələkbərov, Elcan Şamilov, Əhməd Salikov, Fazil Nəcəfov, Kamal Ələkbərov, Kərim Rzayev və s. heykəltaraşların yaradıcılıqlarında ədəbi simaların portret obrazları əks olunmuşdur.

Parlaq özünəməxsus nadir istedada malik, əsərləri ilə heykəltəraşlıq sənətimizin klassikinə çevrilən Fuad Əbdürrəhmanovun yaradıcılığı Azərbay-

[15] Sadıqov S. Azərbaycan heykəltəraşlığında əcnəbi sənətkarlar. Bakı. 2017 s. 58.

can incəsənətinin ayrılmaz hissəsini təşkil edir. Böyük mütəfəkkir M.F.Axundovun (1932), dramaturq Ə.Haqverdiyevin (1933), dramaturq Cəfər Cabbarlının (1944), Səməd Vurğun (1957), tacik şairi Sədrəddin Ayninin (1967) portretlərində aydın görünür ki, F.Əbdürrəhmanov əsərlərində insan xarakterinin əsas cizgilərini göstərməyə cəhd edirdi. O hər bir obraz üçün konkret cizgilər, konkret ifadə vasitələri tapırdı.

Sənətşünaslıq üzrə elmlər doktoru, professor Cəmilə Novruzova qeyd edir ki, "portret janrının intellektual baxımdan inkişaf etmiş şəxsiyyəti dərindən duymaq və hərtərəfli təsvir etmək imkanı F.Əbdürrəhmanovu daha artıq cəlb edirdi. O, əsərlərini təmkinlə işləyir, şəxsiyyətin ən qabarıq xüsusiyyətlərini daha artıq parlaqlığı, əlvanlığı ilə yaratmaq üçün öz müşahidə və təəssüratı üzərində dönə-dönə düşünür, onları cəmləşdirərək tipik obraz canlandırmağa nail olurdu"[16].

Bütün yaradıcılığı boyu yaratdığı portretlərdə yüksək icra sənətkarlığı sərgiləyən P.Sabsay müasirlərinə həsr etdiyi əsərlərdə də bu ənənəni davam etdirməklə, ədəbi şəxslərin simalarında səciyyəvi xüsusiyyətlərini geniş bədii ümumiləşdirmələrdə ifadə etməklə, onların obrazlarını yaratmışdır. Onun şair Süleyman Rüstəm (1950) və Rəsul Rzaya (1952), Səməd Vurğun (1958), rus şairi A.S.Puşkinə (1962) bədii münasibətinin estetik kökündə də qəhrəmanlarının simasında şəxsi səciyyəvi və dövrün tipik xüsusiyyətlərinin bir araya gətirilməsi, bu dəyərlərin obrazlılığın əldə olunmasına yönəldilməsi durur.

Qırxıncı illər yaradıcılığında daha çox müharibə iştirakçılarının portretlərini yaratmağa üstünlük verən Cəlal Qaryağdı da, müharibədən sonra ölkə həyatında ədəbi simaların şair və yazıçıların obrazlarını yaratmaq sahəsində davamlı işlər görmüşdür.

C.Qaryağdı Natəvanı yalnız lirik şairə kimi deyil, ziyalı və zəngin mənəvi aləmə malik zadəgan azərbaycanlı qadın obrazının ümumiləşdirilmiş rəmzi kimi verməyə çalışmışdır. XIX əsr Azərbaycan qadınına xas milli geyimdə, başı örpəkli, qəmgin baxışlı Natəvan obrazı hər bir azərbaycanlı tamaşaçıda lirik və incə hislər oyadır. Bu obraz üzərində axtarışlar aparan heykəltəraş nəticədə zahiri və daxili gözəlliyə malik "Azərbaycan qadını" obrazını ümummilli estetik və mənəvi sərvət səviyyəsinədək yüksəldə bilmişdir. Cəlal Qaryağdının portret əsərləri məzmunca və bədii cəhətdə rəngarəngdir. Xurşudbanu Natəvanın (1948) intim səpkidə həkk olunmuş surətində lirik əhval-ruhiyyə üstündür. Əsərin kompozisiya forması ona müxtə-

---

[16] Novruzova C. Fuad Əbdürrəhmanov – Bakı, 2004, s. 28.

lif cəhətdən yanaşmağa və xarakterik cəhətliliyini açmağa kömək edir. Üzün yumşaq cizgiləri, qaşların yüngül əyriliyi, gözlərin yarıörtülü vəziyyəti, incə gülümsəmə obraza aydınlıq və sakitlik verir. Şairənin başı yüngülcə sola çevrilmiş və azacıq əyilmişdir, həmçinin öz dərin düşüncələri ilə heyrətə gətirən baxışları həmin istiqamətə yönəlmişdir. Məğrur dayanmış başdan yüngülcə sürüşən yaylığın gözəl qatları bir qədər narahatlıq yaradır. Bu da obrazın məğrur sakitliyi ilə təzadlaşır. Müəllif hər bir sürətin qayəsində doğan ən səciyyəvi hərəkət tapır, insanın zəngin mənəviyyatını ifadə etməyə nail olur. Bu keyfiyyət Cəlal Qaryağdının yaratdığı monumental əsərlərə də aiddir.

Azərbaycanın xalq rəssamı, SSRİ Rəssamlıq Akademiyasının üzvü, SSRİ və Azərbaycan Dövlət Mükafatı laureatı, professor Tokay Məmmədovun yaradıcılığında ədəbi simaların obrazları zaman-zaman öz əksini tapmışdır. T.Məmmədov 1953-ci ildə Azərbaycanın dahi klassik şairi "Nizami Gəncəvinin" ağacdan portretini işləmişdir. Tokay Məmmədovun ədəbi simalara həsr etdiyi portret əsərləri 1960-cı ildən sonra bütün mənalarda daha da təkmilləşərək, plastik şərhin təsvir edilən insanın fəlsəfi aləminin açılmasına yönəldilmişdir. Belə ki, o təsvir edilən insanın zahiri görünüşündən daha çox onun daxili xüsusiyyətlərini açıb göstərməyə çalışmışdır. Bununla bərabər heykəltəraş əsərin ümumi plastik bütövlüyünə fikir verməklə həm də obrazın konkret reallığına nail olmuşdur. Heykəltəraşın insan gözəlliyini aşkarlamaq istəyi onun yalnız obrazın xarici görüşündəki cəhətlər plastik görkəm verməsi ilə sonucları, həm də, təsvir olunanın daxili keyfiyyətlərini aşkarlanmasından keçir. Bu mənada 1961-cı ildə yaradılmış Azərbaycanın satirik şairi Mirzə Ələkbər Sabirə, ictimai xadim, dövlət rəhbəri və yazıçı Nəriman Nərimanovun, şair Səməd Vurğunun, dramaturq Mirzə Fətəli Axundovun, yazıçı Mirzə İbrahimov portretlərini yaratmışdır.

Xalq rəssamı, Rusiya Rəssamlıq Akademiyasının həqiqi üzvü, akademik Ömər Eldarovun yaradıcılığında ədəbi obrazlara həsr edilmiş portretlər mövcudur. 1951-ci ildə Leninqradda Repin adına Rəssamlıq Akademiyasını bitirdikdən sonra yaradıcılıq işinə ciddi girişən rəssam ilk dəfə portret sahəsində özünü sınayaraq görkəmli dramaturq F.Axundov, Azərbaycan şairəsi Xurşudbanu Natəvan, şair və dramaturq Hüseyn Cavidin obrazlarını yaratmışdır.

Ömər Eldarov yaratdığı M.F.Axundovun (1953) qranit üzərində işlənmiş büstündə xarici təmkinliyində obrazın həyat intensivliyi aydın seçilir. Plastik həcmin lakonikliyi obrazın ifadəliyinə xidmət göstərir. Formanın belə şərhinə ümumiləşmə və monumentallığın böyük gücü vasitəsilə nail

olunur. Fərdliyin kəskin tərzdə təcəssüm olunması XIX əsr Azərbaycanın qabaqcıl ziyalılarından biri olan şəxsiyyətin tipik xüsusiyyətini özündə əks etdirir.

Azərbaycan heykəltəraşlığında tarixi janrın inkişafını əsasən görkəmli şəxsiyyətlərə həsr olunmuş abidə və portretlərdə izləmək mümkündür. Amma bu sahədə yaradılan əsərlərin nə qədər tarixi olsalar da, zamanın sınağından çıxmaları bir qayda olaraq onların bədii-estetik səviyyəsi ilə bağlı olmuşdur.

**"Portretdə bədii ifadənin əksi"** adlanan **üçüncü yarımfəsildə** sovet dövründə yaradılmış portret əsərlərində bədii cəhətlər önə çəkilmiş və təhlillər aparılmışdır. XX əsrdə bir çox heykəltəraşlar xalq kütlələrinin və şəxsiyyətin rolunu realist şəkildə dolğun obrazlar dilində əks etdirən portret janrlı əsərlər yaratmışdılar. Şəxsiyyətə pərəstiş məfkurəsi heykəltəraşlıq sənətində də, öz mənfi izini qoymuşdur. Bununla bərabər, bu sahədə uğurlu axtarışlar da aparılırdı. Azərbaycan heykəltəraşlarının bir sıra müvəffəqiyyətli portret janrlı əsərlərində inqilab tarixinin parlaq nümayəndələrinin, xalq işi uğrunda fədakarcasına çalışan ictimai xadimlərin obrazları görünməyə başlamışdır. Yüksək sənətkarlıqla işlənən ən kamil portret janrlı əsərlər incəsənətimizin qızıl fonduna daxil olmuşdur. Bu dövrdə zavod və fabriklər, neft və qaz mədənləri, su elektrik stansiyaları, dəmir yolları, yeni şəhərlərin tikildiyi sovetlər ölkəsində müşahidə olunan yüksəliş, gündəlik insan əməyinin coşqun romantikası nəticəsində zəhmətkeş insanların obrazları heykəltəraşların yaradıcılığında öz əksini tapmışdır. Portret janrında müxtəlif dövürlərdə əmək sevər insanların obrazlarını bir çox heykəltəraşlarımız canlandırmışlar. Bu mənada Fuad Əbdürrəhmanovun, Cəlal Qaryağdının, Ömər Eldarovun, Tokay Məmmədovun, Mirəli Mirqasımovun, Münəvvər Rzayeva, İbrahim Zeynalovun, Telman Zeynalovun, Südabə Əliverdiyevanın, Elmira Hüseynova, Kamal Ələkbərov, Elcan Şamilov və Əhməd Salikov, Fazil Nəcəfov və b. yaratdıqları əsərlərin adını çəkmək olar.

Fuad Əbdürrəhmanovun əsərləri onunla rəğbət qazanır ki, bu əsərlər müxtəlif həyat hissələrinə müəllifin öz münasibətini əks etdirir. Heykəltəraş fəza heykəl kompozisiyaları yaratmaq üzərində xüsusilə çox işləyir. Saysız-hesabsız etüdlər və qaralamalar heykəltəraşın səmərəli fəaliyyət göstərdiyinə dəlalət edir. Ustad Əbdürrəhmanov material seçir, kompozisiyanın siluetini, xətlərin ritmini, öz mövqeyi-baxımından heykəlin quruluşunu müəyyən edir. Respublikada mərmər, tunc, qranit, çuqun, üzəridə ilk dəfə işləməyə başlayan heykəltəraşlarda biri Fuad Əbdürrəhmanovdur.

F.Əbdürrəhmanov yaratdığı portretlərdə səciyyəvi cizgilər, ifadəli, psi-

xoloji cəhətdən zəngin obrazlar yaratmağa çalışan dərin düşüncəli bir sənətkar kimi diqqətimizi cəlb edir. Heykəltəraş yorulmadan işləyir. O öz ustalığını daim cilalayır, psixoloji xarakteristika cəhətdən zəngin, parlaq yaddaqalan obrazlar yaradır.

Tokay Məmmədovun portret janrında yaratdığı əsərləri öz orijinallığı ilə diqqət çəkir. Portret janrı ona istedadlı insanın mənəviyyatını, onun gözəlliyə münasibətini, intellektini göstərməyə imkan verirdi. Heykəltəraşın portret yaratmaq prosesinə münasibəti özünəməxsusdur, o, seans zamanı naturanın impulsiv qavranılmasına deyil, məna-məzmun tutumunun təqdimatına, insan haqqında düşüncələrinin vəhdət halında ifadəsinə tapınır. Onun üçün müşahidələrini götür-qoy etməklə, onları cəmləşdirmək, şəxsiyyətin ən mühüm müsbət cəhətlərini qabarıq və maraqlı biçimdə göstərmək daha önəmlidir. Heykəltəraşın plastik həllə və məna tutumuna diqqət yetirməsi sayəsində onun personajları sadəcə olaraq tamaşaçı qarşısında canlanmır, həm də onlara ayrılmış mühitdə həmin auraya təsir göstərməklə ömür sürürlər. Onun portretlərinin əksəriyyətində ki, ilk baxışda sadə təsir bağışlayan kompozisiya həlli obrazın zəngin emosionallığı və psixoloji durumu ilə uyğunlaşır, səsləşir.

Azərbaycan plastikasının daim inkişafı və təkminləşməsi ona respublikanın təsviri incəsənətində aparıcı mövqe tutmağa səbəb olur. Nəzərdən keçirdiyimiz dövrdə Azərbaycan heykəltəraşlarının yaratdığı əsərlərdə tam şəkildə öz əksini heykəltəraşlıq məktəbinin mürəkkəb formalaşma prosesi, milli ənənələr tapmışdı. Yalnız respublikanın həyatının xalqın, onun milli xasiyyətinin düzgün təsviri, düzgün bədii obrazların yaradılmasına zəmin yaratmışdı.

**Fəsil II “Müstəqilik dövrü Azərbaycan heykəltəraşlığında portret janrında yerinə yetirilmiş obrazların plastik həlli xüsusiyyətləri”** adlandırılmış və üç yarımfəsildən ibarətdir. Burada müstəqillik dövrü portret janrlı heykəltəraşlıq əsərləri nəzərdən keçirilir.

Fəslin **“Portret janrında ənənə və müasirlik”** adlanan **birinci yarımfəslində** müstəqilik illərində bir çox yaşlı və gənc heykəltəraşların yaratdıqları portret əsərlərinin təsvir və təhlili verilmişdir.

Azərbaycan heykəltəraşlığında bugünkü mənada portret janrının formalaşma tarixi əslində ənənəvi zahiri uyğunluğu və bütün fərdi xüsusiyyətləri ilə təsvir edilən insanın gerçək oxşarlığı ilə fərqlənən əsərlərin mövcudluğu üstünlük təşkil edir.

Azərbaycan plastika sənətinin ayrılmaz və daha geniş yayılan hissəsi sayılan portret janrının da bu dövrdə yeni bədii xüsusiyyətləri ilə zənginləşdi-

yini qeyd etməliyik. Heç şübhəsiz, bu rəngarəngliyi şərtləndirən başlıca səbəb yaradıcı insanların onların əhatələndikləri gerçəklikdə baş verənlərə münasibət bildirmək, onların qayğılara bələnmiş varlıqlarında hifz olunan zəngin insani keyfiyyətlərə bədii-plastik görkəm vermək olmuşdur. Əgər portret janrının müstəqillik dövründəki evolyusiyasına nəzər yetirsək, onda sənətkarların daha çox həyat müşahidələrinə əsaslandıqlarını söyləyə bilərik.

Müasir mövzuların mahiyyətinə uyğun müasir, plastik formalar, təsvir vasitələri axtarmaq meyli istedadlı heykəltəraş Fazil Nəcəfovun yaradıcılığında qabarıq nəzərə çarpır. O, öz heykəllərində bədii təxəyyüldən doğan sərbəst və cəsarətli formalara əl atır, kompozisiyanı orijinal qurmağa çalışır. Sənətkarın əhatə etdiyi mövzu, toxunduğu problem baxımından İçərişəhər qadınları, Ana əsərləri istər mövzu baxımından, istərsə də heykəltəraşlıq sənətimizə gətirdiyi yeniliklər baxımından tamaşaçının dərin marağına səbəb olur. Gənc qız (1990), Rayanın portreti (1990) kimi büstlərdə müəllif xırda təfərrüatından uzaqlaşaraq, insan hisslərini dilə gətirir. Onun Qoca, Qız, Gənc qadın xüsusi qeyd etmək olar.

1991-ci ildən başlayaraq bu günümüzə kimi davam edən ideologiyasızlıq mərhələsində yaşlı nəslin yaradıcılığına xas olan ənənəvi dəst-xəttin qaldığı görünsə də, yaradılan yeni əsərlərdə “sosialist realizmi” nin aparıcı yaradıcı tendensiyalarından biri olan patetik mövzu və ifadələrin yoxluğu qabarıq görünməkdədir. Əksinə, orta və sənət yoluna yenicə qədəm qoyan gənclərin yaradıcılıq axtarışlarında kəskin mövzu və bədii ifadə dəyişikliyinə rast gəlmək mümkündür. Etiraf edək ki, bu mövzu rəngarənliyi həm də heykəltəraşlarımızın müxtəlif nəsillərinin təmsilçilərinə ərsəyə gətirdikləri əsərlərdə öz hiss və duyğularını müxtəlif ovqata bələnmiş tutumda ifadə etməyə imkan vermişdir. Bir həqiqətdir ki, heykəltəraşlıqda portret janrı həmişə müasir nəslin vacib, duyulan və anlaşıqlıqlı bir sahəsi olmaqla, gələcək nəsil üçün isə keçmiş-artıq yaşanmış dövr barədə əyani təsəvvür yaradacaq inandırıcı bədii sənəd rolunu oynamışdır. Bu əsərlərin uğurlu nümunələrində tarixi şəxsiyyətlərin obrazları canlandırılmaqla yanaşı, konkret dövrün həmin insanlar haqqında olan təsəvvürləri də öz əksini tapmışdır. Başqa sözlə desək, çox vaxt obrazın zahiri oxşayışının əldə olunması ilə yanaşı, onların timsalında zamanın sosial-siyasi problemləri də öz ifadəsini tapmış olurdu. Bu mənada Natiq Əliyev yaratdığı portretlərdə qəhrəman insanların, dövlət xadimlərinin, cəfakeş, cəsur insanların, xalqın görkəmli ziyalılarının yüksək bədii dəyərə malik obrazları ilə tanış oluruq.

Bəlkə də elə bu baxımdan Natiq Əliyev işlədiyi müxtəlif insan portretlə-

rinə daha həssas yanaşır. Qadın portretində bütün bu məqamlar öz plastik təcəssümünü tapmışdır. Qadının üzünün əzəmətli quruluşu onun xanımlığı ilə yanaşı həm də işgüzarlığını əks etdirir, onun hər işin öhdəsindən gələ biləcəyinə tamaşıçısını inandırır. Səliqə ilə yığılmış saçların ümumi tutumunda onun işgüzar ziyalı bir təbəqənin nümayəndəsi olduğunun əlamətləri duyulmaqdadır. Üz cizgiləri onun yaşının bir o qədər də çox olmadığını göstərir. Düşüncəli baxışları fikirlərinin çox uzaqda olduğunu anlamağa imkan verir. Bu düşüncəli durumun səbəbsiz olmadığı onun şən olmayan, özünə qapılmış vəziyyətindən də hiss olunur. O, sanki kədərli baxışlarını uzaq bir nöqtəyə dikərək onu bir an belə rahat buraxmayan daxili sarsıntılardan uzaqlaşmağa çalışır. Bu kədərli baxışlarda dərin bir yorğunluq da hiss olunur. Bütün bu hissləri çox böyük professionallıqla tamaşaçıya çatdıran heykəltəraş bu əsərə baxan hər kəsi təsirləndirərək təzadlı hisslər burulğanına salır. Bütünlükdə bu obraz onu səciyyələndirən əzalarının kamilliyi ilə güclü şəxsiyyət kimi qəbul olunmasını şərtləndirmişdir.

Görüş Babayev obrazların təcəssümündə detalları xırdalamadan ümumiləşdirilmiş plastik obraz yaratmağa meyillidir. Qız portret əsərinə diqqət yetirsək, burada kifayət qədər sevgi, sərbəstlik, paklıq və incəlik duymaq mümkündür. Heykəltəraş burada qarşısına yeni plastik ifadə vasitəsi, daha dəqiq desək, konkret uşaq xasiyyətinin böyüklüyə meyilliyini görsətmək vəzifəsi qoymuşdur ki, bu da bizi yaxşı mənada istər-istəməz antik sənətin nümunələrini bədii həllini xatırlamağa vadar edir. Belə ki, burada plastik formanın sərbəst xarakter alması duyulmaqdadı. Məhz bu, qızın surətinə canlı insana xas təbiilik bəxş etmişdir.

Sevil Süleymanovanın Qız portreti (1998), Virtuoz (1999), Səhnə arxası (2010) və s. əsərlərində insan psixologiyasından qaynaqlanan müxtəlif ovqatın ifadəsini müşahidə etmək olar. Qız portretində qazandığı uğurlardan qürurlanan real obrazda və peşəsinin mahir ifadəçisi olmasından fərəhlənən qızın portretində ovqatın müsbət durumu kifayət qədər qabarıq duyulur. Bu işlərin hər birinin respublika və xarici sərgilərdə müvəffəqiyyət qazanması Sevil Süleymanovanın heykəltəraşlıq məktəbində öz dəsti xəttinin olmasını sübut etmişdir. Hər bir portret əsərlərində insan xarakterinin incə çalarlarını və nüanslarını plastikada yaşadan modelləşmənin zənginliyinə üstünlük verən Sevil xanım oynaq yapma çalarlarının gözəlliyi ilə seçilən emosionallığı, gərgin və özünəməxsus fərdi xüsusiyyətləri özündə hifz edən obraz yarada bilmişlər.

Portret janrında müasir formaların tətbiqinə heykəltaraşların müxtəlif nəsillərinin yaradıcılığında rast gəlmək mümkündür. Bu mənada Fuad Sala-

yevin, Akif Əsgərov, Natiq Əliyev, Azad Zeynalovun, Teyub Yusifov, Sevil Süleymanova, Rəcəb Müslümov, Hökumə Səfərli, Nurlan Məmmədov, Məmməd Rəşidov, Kənan Əliyev, Azad Əliyev, Xaqan Əhmədov, Vüqar Quliyev və s. yaratdığı əsərlərin adını çəkmək olar.

Rahib Qarayevin diplom işi kimi işlədiyi Bəhruz bəy Kəngərli (2014), eləcə də Düşüncə (2012) və Gənc tələbə (2014) əsərlərində də ənənə ilə müasirliyin uğurlu bədii görüntüsünü müşahidə etmək mümkündür.

Gənc heykəltəraş Rahib Qarayevin portret janrında yaratdığı əsərləri öz orijinallığı ilə diqqət çəkir. Portret janrı ona istedadlı insanın mənəviyyatını, onun gözəlliyə münasibətini, intellektini göstərməyə imkan verirdi. Heykəltəraşın portret yaratmaq prosesinə münasibəti özünəməxsusdur, o, seans zamanı naturanın impulsiv qavranılmasına deyil, məna-məzmun tutumunun təqdimatına, insan haqqında düşüncələrinin vəhdət hallında ifadəsinə tapınır. Onun üçün müşahidələrini götür-qoy etməklə, onları cəmləşdirmək, şəxsiyyətin ən mühüm müsbət cəhətlərini qabarıq və maraqlı biçimdə göstərmək daha önəmlidir. Heykəltəraşın plastik həllə və məna tutumuna diqqət yetirməsi sayəsində onun personajları sadəcə olaraq tamaşaçı qarşısında canlanmır, həm də onlara ayrılmış mühitdə həmin auraya təsir göstərməklə ömür sürürlər. Onun portretlərinin əksəriyyətində ki, ilk baxışda sadə təsir bağışlayan kompozisiya həlli obrazın zəngin emosionallığı və psixoloji durumu ilə uyğunlaşır.

Bu fəslin **ikinci – "Portret janrında tarixi və ədəbii obrazlar"** adlanan **yarımfəslində** müstəqilik illərində bir çox yaşlı və gənc heykəltəraşların tarixi və ədəbi şəxsiyyətlərin portret obrazları haqqında məlumat verilmişdir. Azərbaycanda heykəltəraşlıq tarixinə nəzər yetirəndə məlum olur ki bütün heykəltəraşlarımız tarixi janra aid sənət əsərləri yaratmışlar. Tarixi portretlərdə obrazın geniş bədii ümumiləşdirmələrlə həll olunma tendensiyasının geniş yayıldığını vurğulamaq istərdik. Öncədən deyək ki, xüsusiyyətləri vardır. Belə ki, burada obrazına müraciət olunan hər hansı şəxsiyyətin həyat və fəaliyyətinə həsr olunmuş materialları öyrənmədən keçinmək mümkün deyildir. Tarixi portretə müraciət edən hər bir heykəltəraş mütləq müəyyən bir epoxaya nüfuz etmək və orada baş verən önəmli hadisələrdən xəbərdar olmalıdır. Odur ki, öz-özlüyündə tarixi portret mürəkkəb janr olmaqla, rəssamdan gərgin yaradıcılıq axtarışları ilə yanaşı, həm də onun hərtərəfli mədəniyyətə malik olmasını tələb edir. Yalnız bu halda rəssam qarşısına qoyduğu ideyanın, insan şəxsiyyəti və cəmiyyətin tarixinin gerçəkləşdirilməsi kimi yaradıcılıq vəzifəsinin reallaşdırılması üçün geniş imkanlar əldə edə bilir.

Heykəltəraşlıqda psixoloji yaşantıları ifadə etmək nə qədər çətin olsa da milli heykəltəraşlığımızın inkişafında əvəzsiz xidmətləri olan akademik Ömər Eldarov bunu bütün yaradıcılığı boyu gerçəkləşdirməyə çalışmışdır. Onun özünə obyekt seçdiyi müxtəlif xarakterli obrazları bəlkə də ömürlərinin ən önəmli-həlledici məqamlarında tamaşaçıya təqdim etməyə üstünlük verməsini də portretə özünəməxsus yanaşmasının ifadəsi saymaq olar. Bu hər sənətkardan ciddi və davamlı axtarışlar tələb etsə də o, yorulmaqdan usanmayaraq ictimailəşən şəxsiyyətləri daha yaddaqalan və düşündürücü forma-biçimdə göstərməyə çalışmışdır. Onun müstəqillik dövrü yaradıcılığının nəticəsi olan bəstəkar Tofiq Quliyevin portreti (1999) əsəri də belə plastika nümunələrindəndir. Portretdə əlləri ümumi kompozisiyaya daxil etməyin nə qədər çətin olmasına baxmayaraq, heykəltəraş Tofiq Quliyevin piyanonun dillərinə toxunmaqdan usanmayan əllərini plastik tutumda göstərməyə qərar vermişdir. Qənaətimizcə elə bunun özü portretin daha da ifadəli alınmasında önəmli rol oynamışdır. Görkəmli tişə ustası bəstəkarın başına yönəli əlinə digəri ilə dəstək verməklə onun bütünlükdə duyğulara bələndiyini daha inandırıcı göstərməyə nail olmuşdur. Əsərin yaranması fizioloji baxımdan bəstəkarın "tükəndiyi" dövrə təsadüf etsə də, heykəltəraşın təqdimatında o, yaşayıb-yaratmaq həvəslidir. Elə portretin plastik həllində sezilən oynaq yapma manerası da obrazın psixoloji yaşantılarını qabartmaq, ümumi tutumu ilə tamaşaçını ovsunlamaq gücündədir.

Azərbaycan heykəltəraşlarının yaşlı nəslinin təmsilçisi olan Əhməd Salikov müstəqillik illərində də əvvəlki şövqlə yaradıcılıq axtarışlarını davam etdirmişdir. Bunu onun müxtəlif illərdə yaratdığı Məhəmməd Füzuli (1995), Məhəmmədhüseyn Şəhriyarın portreti (1995), Üzeyir Hacıbəyli (1995), A.S.Puşkin (1998), Səttar Bəhlulzadə (2014) və s. əsərləri də təsdiqləyir. Bu plastik nümunələri də zaman tutumuna görə tarixi portretlər sırasına daxil etmək olar. Adlarından da göründüyü kimi qocaman sənətkar dəfələrlə obrazları təsviri sənətin müxtəlif sahələrində canlandırılmış görkəmli şəxsiyyətlərin portretlərinə müraciət etmişdir. Müxtəlif materiallarda əbədiləşən bu portretlərin bədii-estetik dəyərinə rəğmən demək olar ki, müəllif həmin obrazların hər birini özünəməxsus yaradıcı süzgəcindən keçirməklə, onların başqa müəlliflərə məxsus olan əsərlərdə yaşanan mənəvi-psixoloji tutumdan fərqli yaradıcı-insani keyfiyyətlərini bədiiləşdirməyə nail olmuşdur.

Respublikanın tanınmış tişə ustası Tokay Məmmədovun yaratdığı Bəstəkar Üzeyir Hacıbəylinin portreti (2009) və Bəstəkar V.A. Motsartın portreti (2009) əsərləri yüksək bədii tutumuna görə tarixi portret janrının ma-

raqlı nümunələri sayıla bilər. Hər iki əsər bəstəkara həsr olunsa da, onlar həm icra materialına, həm də kompozisiya həllinə görə bir-birindən fərqlənirlər. Bütün ömrünü Azərbaycan musiqisinin yükünü daşımağa həsr etmiş Üzeyir Hacıbəylinin gipsdən hazırlanmış portreti dahi bəstəkara bu vaxta qədər həsr olunmuş əsərlərdən seçilir. Yeri gəlmişkən deyək ki, T.Məmmədov görkəmli bəstəkarın Bakıda ucaldılmış abidəsinin də müəllifidir. Həm tunc abidədə, həm də gips portretdə Üzeyir bəy düşüncəli tutumda-ovqatdadır. Hər iki əsər daha çox bəstəkarın psixoloji yaşantılarının təsirli plastik həlli ilə yadda qalır. Fərq onların baxışlarının istiqamətindədir. Əgər heykəldə bəstəkarın baxışları aşağıya yönəlidirsə, gips portretdə onun nəzərləri yuxarıya zillənib. Çatılmış qaşlarından "süzülən" gərginlik həm də nəzərlərini naməlum istiqamətə yönəltmiş Üzeyir bəyin yaradıcılıq məqamı ilə baş-başa qaldığından xəbər verir. Portretin yumşaq yapma manerasında bədii həlli yuxarıda vurğuladığımız bədii-estetik məziyyətləri qabarıq duymağa kömək edir.

Xalq rəssamı Fuad Salayevin portret janrlı əsərlərinin hər birində sənətkar özünəməxsusluğuna rast gəlmək olar. Fuad Salayev yaradıcı insanların bacarığını və gələcəyi duyma istedadından qaynaqlanan, maddi və mənəvi aləmin yeniliklərini üzə çıxarmağı və gördüklərinə fərqli görüntü verməyi bacaran sənətkardır. Sənətkarın 1990-cı ildə büst portret əsasında yaratdığı Ziyalının portreti də bu nöqteyi nəzərdən diqqəti cəlb edir. Əsərdə ziyalının simasındakı ifadələri incə plastik xüsusiyyətlərlə qabardan heykəltəraş detallı formalara üstünlük vermişdir.

Sənətşünaslıq üzrə fəlsəfə doktoru Emin Ələkbərov qeyd edir ki, "Fuad Salayev yaratdığı portretlərə məxsus xüsusiyyətləri aşkarlamağa və onun psixoloji xarakteri üçün səciyyəvi olan cəhətləri seçə bilmək bacarığına malik sənətkardır. Bütövlükdə portretin mahiyyətini düzgün qiymətləndirmək, geniş, əhatəli tərzdə yaratdığı obrazın daxili aləminə nüfuz etmək məhz onun portretləri üçün xas olan bədii xüsusiyyətlərdir. Ümumiyyətlə, Fuad Salayev işlədiyi müxtəlif insan portretlərinə daha həssas yanaşır və bu yanaşma da obraza məxsus əsas xüsusiyyətlərin önə çəkilməsi, dolğunluğu ilə təsdiqlənmiş olur"[17].

Heykəltaraş Arif Qazıyevin janr əlvanlığı ilə seçilən müstəqillik dövrü yaradıcılığında portretlər də xüsusi yer tutur. Bu portretlər qalereyasında

---

[17] Ələkbərov Emin. Heykəltəraş Fuad Salayevin yaradıcılığı: sənətşünaslıq üzrə fəlsəfə doktoruru elmi dərərəcəsi almaq üçün təqdim edtiyi dissertasiya: Bakı: 2016.

işıqlı əməlləri ilə Azərbaycan tarixində dərin iz salmış şəxsiyyətlərin obrazları xüsusi yer tutur. Bu qəbilədən olan əsərlər sırasında Ümummilli lider, ölkə prezidenti Heydər Əliyev, Azərbaycanın ilk peşəkar memarı Zivərbəy Əhmədbəyov, Sovet İttifaqı Qəhramanı Məlik Məhərrəmov, Məhəmməd Füzuli, Nizami Gəncəvi və s. adını çəkmək olar. Onun yaratdığı bu portretlərdəki forma və cizgilər son dərəcə müxtəlif olmaqla, hər bir şəxsiyyətin səciyyəvi xüsusiyyətini açmağa yönəlidir. Bu mənada onun obrazların iç dünyasını və yaşantılarını aşkarlayan bədii ifadə vasitələri plastik tutumuna görə dəqiqdir.

Heykəltəraşlarımızın orta nəslinin təmsilçisi olan Azad Zeynalov isə 2007-ci ildə yaratdığı Rəsul Rza əsərində mərmər portretində daha təsirli və cəlbedici bədiiləşməsinə xidmət edə biləcək xüsusiyyətini çox incəliklə duyaraq inandırıcı plastika nümunəsi yaratmağa nail olmuşdur. Digər tərəfdən müəllifin Rəsul Rzanın portretini məhz ağ-işıqlı materialda gerçəkləşdirməsi ona yaradıcılığı təzadlı məqamlarla zəngin olan şairin ümumiləşdirilmiş obrazını yaratmağa imkan vermişdir. Belə ki, portretdə şair hər hansı duyğulandırıcı ovqat daşıyıcılığından uzaqdır. Belə ki, onun şairin Göyçay şəhərindəki ev muzeyində nümayiş etdirilmək üçün nəzərdə tutulan bu əsərdə başlıca yaradıcı vəzifəsi yaratdığı "Rənglər" şeirlər silsiləsi ilə Azərbaycan poeziyasında dərin iz buraxmış söz xiridarının gerçəkçi-inandırıcı portretini yaratmaq olub. Qənaətimizcə o, məqsədinə nail olub. Onun portretin təsirliliyi üçün seçdiyi bir qədər sərt fakturalı səth onun əhatələndirdiyi və şairin incə-yumşaq yapma manerası ilə işıqlı və cəlbedici görünən çöhrəsinin yaddaqalan görkəmini əldə etməyə nail olmuşdur. Elə müəllifin portretin başının arxa hissəsini fon-yerliklə bitişik həll etməsi də məqsədli olmaqla, obrazın daha cəlbedici görünməsi üçün düşünülmüşdür. Odur ki, bir qədər sərt fakturanın qonşuluğunda şairin bütün əzaları aydın və dəqiq görünməklə, onunla göz-gözə qalanlara bədii-estetik məziyyətlər aşılmaq gücündədir.

Müstəqillik dövrü heykəltəraşlığında portret janrında mövcud olan yaradıcılıq axtarışlarına göstərdiyimiz münasibətin bilavasitə heykəltaraşlarının müraciət etdikləri süjet və obrazlarda psixoloji yaşantıların ifadəsinə köklənməyimiz təsadüfi olmamışdır. Belə ki, hər bir portret reallıqda müəyyən yaşantının ifadəsi, fərqli bir ovqat daşıyıcısıdır. Odur ki, ələmdən-nəşəyə qədər uzanan bu ovqat daşıyıcılığında hər bir heykəltəraşın estetik duyumuna müvafiq gələ biləcək an-məqam mövcuddur. Bu mənada Azərbaycan heykəltəraşlarının müxtəlif nəsillərinin müstəqillik dövründə portret janrında maraqlı əsərlər yaratdığını qeyd etmək mümkündür. Bu fəslin üçüncü **"Şəhər memarlığında portret janrının fəza-məkanın təşkilində yeri"**

adlanan **yarımfəsilində** şəhərdə ucaldılan portret əsərlərin bədii prinsipləri haqqında məlumat verilmişdir. Müstəqilik dövrü Azərbaycan heykəltəraşlığında portret janrı yeni xüsusiyyətlərlə zənginləşmişdir. Portret janrının müstəqillik dövründəki inkişafına nəzər yetirsək, onda sənətkarların daha çox həyat müşahidələrinə əsaslandıqlarını söyləyə bilərik. Düzdür, heykəltəraşlarımızın yaradıcılığında uzaq-yaxın keçmişimizin şanlı səhifələrini rövnəqləndirən şəxsiyyətlərin portretləri də tez-tez yer almışdır, amma bununla belə sənətkarların bilavasitə müasirlərinin obrazlarına davamlı müraciət etdiklərini qeyd etməliyik.

Bununla belə Azərbaycan heykəltəraşları tərəfindən yaradılan və respublikamızla yanaşı onun hüdudlarından uzaqlarda qoyulan bir çox portret abidələrində forma-biçim özünəməxsusluğuna rast gəlmək mümkündür. Bu mənada Ömər Eldarov, Tokay Məmmədov, Fuad Salayev, Natiq Əliyev, Akif Əsgərov, Azad Əliyev, Fazil Nəcəfov və s. ərsəyə gətirdiyi abidələrin bir çoxunda ideoloji müstəqilliyin onlara verdiyi imkanların praktikada yaddaqalan tətbiqini görmək mümkündür. Şəhər mühitində portret abidələrin ucaldılması müstəqilik dövrü ilə yanaşı Sovet dövründə də, Azərbaycanın bir çox şəhərlərində ucaldılmışdır. Bu abidələrə misal olaraq Mikayıl Müşfiqin, Ayna Sultanovun və Naxçıvan şəhərində akademik Ömər Eldarov tərəfindən ucaldılmış ümummilli liderimiz Heydər Əliyevin portret abidəsini göstərmək olar. Ümummilli lider Heydər Əliyevin obrazı Ömər Eldarovun yaradıcılıq bioqrafiyasının əsas səhifələrindən biri təşkil edir. İkinci dəfə Sosialist Əməyi Qəhrəmanı fəxri adına layiq görüləndən sonra 1987-ci ildə Naxçıvan şəhərində Heydər Əliyev büstü ucaldılmışdır. Ömər Eldarov yeganə heykəltəraşdır ki, Heydər Əliyevin portretini bir başa canlı naturadan işləmişdir.

Heykəltaraş Tokay Məmmədovda müstəqillik illərində də əvvəlki şövqlə yaradıcılıq axtarışlarını davam etdirmişdir. Tokay Məmmədov 2003-cü ildə həkim Əbülfəz Qarayevin Uşaq xəstəxanasının qarşısında büstünü ucaltmışdır. Tokay Məmmədov monumental portret üçün bir-birinin ardınca portretlər silsiləsi yaradır. Onlarda kompozisiya incəlikləri, ayrı-ayrı detallar dəyişdirilir, bununla da, obrazın cizgilərinə və şərhinə müxtəlif səpkilərdən yanaşılır. Bu əsər kompozisiya bütövlüyü ilə nəzərə çarpır, obrazın ifadəliyinə sifət qurluşunun ritmik şəkildə incəliklə yapılması sayəsində nail olunmuşdur.

Xalq rəssamı Natiq Əliyevin əsərləri xüsusi maraq kəsb edir. Onun müxtəlif materiallarda ərsəyə gətirdiyi portretlərdə inandırıcılıqla səciyyəviliyin elə bir vəhdətinə nail olunmuşdur ki, tamaşaçının göz-gözə qaldığı

insanlar yaşanan ömürlərinin yaddaqalan bədii plastik tutumu kimi baxılırlar. Heykəltəraşın mesenat Hacı Zeynalabdin Tağıyevə (2013), dramaturq Hüseyn Cavidə (2012), bəstəkar Üzeyir Hacıbəyliyə (2011), şair Bəxtiyar Vahabzadəyə (2009) və səyyah Tur Heyerdala (2008) həsr olunmuş portretlərini bədii obraza yüksəlmənin yaddaqalan nümunələri hesab etmək olar.

Müstəqillik dövrü heykəltəraşlarında portret janrında mövcud olan yaradıcılıq axtarışlarına göstərdiyimiz münasibətin bilavasitə müraciət etdikləri süjet və obrazlarda psixoloji yaşantıların ifadəsini göstərilməsi təsadüfi olmamışdır. Belə ki, hər bir portret reallıqda müəyyən yaşantının ifadəsi, fərqli bir tərzin daşıyıcısıdır. Bu mənada Azərbaycan heykəltəraşlarının müxtəlif nəsillərinin müstəqillik dövründə portret janrında maraqlı əsərlər yaratdığını qeyd etmək mümkündür.

**Nəticədə** heykəltəraşların həm sovet, həm də müstəqilik illərində yerinə yetirdikləri portret janrlı əsərləri yekunlaşdırılır və tədqiqatın əsas məqamları göstərilir:

1. heykəltəraşlıqda portret janrı tişə ustalarının bütün nəsillərinin yaradıcılığında yer tapmışdır;
2. heykəltəraşlıqda portret nümunələrinin geniş yayılmasını hər bir yaradıcının düşüncələrini onun bədii-texniki çərçivəsində obrazlı tutumda ifadə etmək imkanları şərtləndirmişdir;
3. portret janrında obrazlıq məsələsi sovet dövründə də nail olunmuşdur;
4. portret janrının bədii-texniki ifadə imkanlarının rəngarəngliyi üzə çıxarıldı;
5. müstəqillik dövrünün ideologiyasızlığı Azərbaycan heykəltəraşlarında portret janrının klassik bədii potensialının genişliyini təsdiqləməyə imkan verdi;
6. müstəqillik dövrü portretlərində obrazlar qalereyası məna-məzmun cəhətdən və sosial tutum baxımından çox genişləndi;
7. portretlərdə materialın obrazlılıq ifadəçisinə çevrilməsi sərgiləndi;
8. tarixi şəxsiyyətlərin obrazlarına maraq heykəltəraşlığımızın prioritetlərindən birinə çevrildi.

**Mövzu ilə bağlı müəllif tərəfindən aşağıdakı məqalələr dərc edilib:**

1. Heykəltəraş Cəlal Qaryağdının yaradıcılığında portret janrı // "Sivilizasiya" № 2. Bakı. 2016, s. 257-260.

2. Литературные образы в портретном жанре азербайджанской скульптуры советского периода // «Научные исследования в сфере гуманитарных наук: Открытия XXI века». Международная научно-практическая конференция. Пятигорск, 2017, с. 196-201.

3.Место исторического жанра в Азербайджанской портретной скульптуре XX века" // "İzdenic" "Поиск". Международный научный журнал-приложение Республики Казахстан. с. 62-66.

4. Heykəltəraş Ömər Eldarovun yaradıcılığında portret janrı // "Axtarışlar" Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan bölməsi, İncəsənət Dil və Ədəbiyyat İnstitutu. Naxçıvan, № 2, 2018. s.163-167.

5. Heykəltəraş Natiq Əliyevin yaradıcılığında portret janrının bədii xüsusiyyətləri // "Sivilizasiya" c.7, №1. Bakı, 2018 (37), s. 356-360.

6. Heykəltəraş Fuad Əbdürrəhmanovun portret janrlı əsərlərin bədii xüsusiyyətləri // "Axtarışlar" Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan bölməsi, İncəsənət Dil və Ədəbiyyat İnstitutu. Naxçıvan, № 4, 2018 (30), s. 186-191

7. Azərbaycanın qadın heykəltəraşlarının yaradıcılığında portret janrı // "Sivilizasiya" c.7, №3. Bakı, 2018 (39), s. 97-103.

*Нармин Азад гызы Эминбейли*

# ЭТАПЫ РАЗВИТИЯ ПОРТРЕТНОГО ЖАНРА В СКУЛЬПТУРЕ АЗЕРБАЙДЖАНА

## Р Е З Ю М Е

Диссертация посвящена основным этапам развития портретного жанра в скульптуре Азербайджане, рассматриваемого в контексте современного искусства.

Диссертация состоит из введения, двух глав, шести подглав, заключения и списка использованной литературы.

**Во введении** обосновывается актуальность темы, определяется степень разработанности проблемы, выявляются цель и задачи исследования, излагается научная новизна, характеризуются основные источники и практическая значимость работы.

**Глава I – «Поиски выразительности в портретных произведениях, созданных в азербайджанской скульптуре в советский период»** рассматривается становление портретного жанра в азербайджанской скульптуре, анализу подвергаются литературные и исторические образы, созданные в жанре портрета, характеризующиеся художественной выразительностью.

**Глава II – «Особенности пластического решения скульптурных портретов, созданных в период независимости Азербайджана»** посвящена выявлению пластических особенностей скульптурных произведений в период независимости Азербайджана, созданных в жанре портрета, где исследуется проблемы традиции и современности. Предпринимается попытка определения места скульптурных портретов в пространственном решении городской архитектуры.

**В заключении** обосновываются основные выводы данного исследования.

**Narmin Azad Eminbayli**

## THE STAGES OF THE DEVELOPMENT OF PORTRAITURE IN PLASTIC ARTS IN AZERBAIJAN

## S U M M A R Y

The thesis is dedicated mainly to the stages of the development of portraiture in Azerbaijan, which is being regarded in the context of Modern Art.

The thesis consists of the Introduction, two chapters, six subchapters, a Conclusion, and a hand list (bibliography) of the used literature.

**In the Introduction** the author substantiates the topicality of the subject, identifies the degree of the research of the problem, brings out the aims and the goal, sets forth the science-based novelty of the problem, and describes the main sources and practical significance of the work.

**Chapter I – "The search of the expressiveness in portraits created in Azerbaijan plastic art during the Soviet period"** views the formation of the portraiture in the Azerbaijan Plastic Art, analyses literary and historical characters created in portraiture which speak of their expressiveness.

**Chapter II – "Peculiarities of the plastic solution of sculptural portraits created during the period of the independence of Azerbaijan"** is devoted to the identification of the sculptural peculiarities of sculptures in the genre of portraiture created during the period of the independence of Azerbaijan, where the problem of tradition and modernity is being studied.

**In the Conclusion** the main inferences of the Thesis are substantiated.

Tiraj 100№ sifariş N 567
“Ecoprint” nəşriyyatının mətbəəsində
çap olunmuşdur

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**АЗЕРБАЙДЖАНСКАЯ ГОСУДАРСТВЕННАЯ АКАДЕМИЯ ХУДОЖЕСТВ**

*На правах рукописи*

**НАРМИН АЗАД гызы ЭМИНБЕЙЛИ**

# ЭТАПЫ РАЗВИТИЯ ПОРТРЕТНОГО ЖАНРА В СКУЛЬПТУРЕ АЗЕРБАЙДЖАНА

**Специальность: 6215.01 – Изобразительное искусство**

## А В Т О Р Е Ф Е Р А Т

диссертации на соискание ученой степени
доктора философии в области искусствоведения

**БАКУ - 2018**